**L.Z.HƏSƏNOVA**
*e-mail: leylamuzi@gmail.com*
**:https://orcid.org/0009-0006-9057-9205**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

**10.62021/0026-0028.2025.2.166**

# ROMANTİZM ƏDƏBİ CƏRƏYANININ ƏSAS İDEYA İSTİQAMƏTLƏRİ VƏ ESTETİK XÜSUSİYYƏTLƏRİ

***Xülasə.*** *XX əsr Azərbaycan ədəbiyyatının əsas cərəyanlarından olan romantizm cərəyanı ədəbiyyatımızda öz ideya istiqamətləri və estetik xüsusiyyətləri baxımından fərqlənən və mahiyyət etibarilə yeni bir forma və məzmun tələb edən ədəbi istiqamət kimi öz yerini almışdır. Bu cərəyanı digər cərəyanlardan fərqləndirən başlıca cəhət əhatə etdiyi ümumbəşəri ideyalar və mühüm estetik xüsusiyyətlər idi. Məqalədə Azərbaycan romantiklərinin yaradıcılığı əsasında romantizmin özünəməxsus əsas ideya istiqamətləri tədqiqata cəlb olunmuş və estetik xüsusiyyətləri araşdırılmışdır.*

***Açar sözlər:*** *romantizm, ədəbi cərəyanlar, ədəbiyyat, estetika, bədii nümunələr*

**Giriş**. Romantizm ədəbi cərəyanı XIX əsrin sonu, XX əsrin əvvəllərində Avropada meydana gəlmişdir. Hər nə qədər bu cərəyan Şərqin qədim və zəngin ənənələrindən bəhrələnsə də, romantizm özünəməxsus ədəbi-estetik prinsipləri və obyekti olan bir cərəyan kimi formalaşa bilmişdir. Romantizm bu dövrdə cəmiyyətdə baş verən nəhəng dəyişikliklərə, o cümlədən Fransa və ABŞ kimi ölkələri alovlandıran, demokratiyada möhtəşəm dəyişikliklərə səbəb olan inqilablara reaksiya kimi yaranmışdır. Romantizm cərəyanı daha çox emosiyalara və yazıçının daxili duyğularına diqqət yetirirdi.

Romantiklər universal, fəlsəfi məzmuna və məntiqə üstünlük verirdilər. Onlar insanın iç dünyasını daha çox diqqət mərkəzində saxlayırdılar. Əslində, romantizmin nümayəndələrində insanın daxili dünyasına, qəlb aləminə olan maraq onların fərdi üslubuna bağlı deyildi. Bu ədəbiyyatın mərkəzi mövzusuna çevrilən insan problemində onların digər cərəyanın nümayəndələrindən daha irəliyə doğru atdığı bir addım idi.

Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərində meydana gələn romantizm cərəyanı öz ideya istiqaməti və estetik mahiyyəti ilə daha çox milli zəmində yaranıb inkişaf etmişdir. Azərbaycan romantizm ədəbi cərəyanının əsas nümayəndələri sırasında Ə.Hüseynzadə, M.Hadi, H.Cavid, A.Şaiq, A.Səhhət və başqalarının adını çəkmək olar.

Bizim romantiklərin yaradıcılığından iki istiqamətdə danışmaq mümkündür: ümumiyyətlə ədəbi irs şəklində və məxsusi, romantik yaradıcılıq tipi şəklində. Azərbaycan ədəbiyyatının tərkib hissəsi olmaq etibarilə romantiklərin irsi daima araşdırılıb, öyrənilib. Xüsusi romantik yaradıcılıq tipi kimi isə onlar haqqında əsaslı tədqiqatların bünövrəsi bizim ədəbiyyatşünaslıqda 60-cı illərin əvvəllərində qoyulmuşdur [9, s. 9].

**Əsas hissə.** Romantizm sənətdə və ədəbiyyatda yeni və fərqli mövzu dairəsi olan bir estetik cərəyan olaraq fərqlənir. Bu istiqamət insanın daxili aləminə, duyğularına, xəyalına və azadlıq istəyinə xüsusi önəm verir. Romantizmin estetikası rasionalizmdən fərqli olaraq hiss və duyğunun üstünlüyünü ön plana çıxarır, fərdi təcrübənin və subyektiv yanaşmanın bədii ifadəsini əsas sayır.

Məlum məsələdir ki, romantiklərin maraq dairəsinin nüvəsində hər zaman insan problemi dayanmışdır. Talelər qədər romantiklərin düşüncə obyektində özünə yer tutan ikinci bir

obyekt tapmaq asan deyil. M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq yaradıcılıqlarının ilk illərindən başlayaraq bu problemin həlli haqqında düşünmüş, bu barədə olan fikir və mülahizələrini romantizmə xas olan bir yüksəkliyə qaldırmışlar.

Romantizmdə insana verilən qiymətin də məna çaları dərin idi. Romantiklər sadəcə olaraq ümumi insandan, insan məfhumundan danışmırdılar. Onlar üçün konkret insan var idi. M.Hadi məqalələrinin birində qeyd edirdi ki, sən ki, başqalarının möhnətindən qəmsizsən, sənin adını insan qoymaq ciddən sözavər deyildir. Burada müəllifin diqqətə çatdırmaq isdədiyi odur ki, insan cəmiyyətdən kənarda qala bilməz, o, cəmiyyətin verdiyi dərdlər, ələmlər haqqında düşünməlidir.

Romantizmin əsas ideya istiqamətlərindən biri də hər zaman insan və yaradılışla bağlı olan fəlsəfi düşüncələr olmuşdur. M.Hadinin "Təraneyi-qəmpərvanə" şeirindən aşağıdakı nümunəyə nəzər salaq:

*Cahanə gəlmədən məqsəd nədir insanə, bilməm ki?*
*Həqiqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki?*
*Mən idrak etmədim dünyayə gəlməkdən nədir hikmət*
*Yaratmaqdan nədir hikmət bizi sübhanə, bilməm ki? [ 4, s. 155]*

Verilən şeir parçasında Məmməd Hadi klassik romantik poeziyanın əsas ideya istiqamətlərinə uyğun olaraq insanın varlığı, dünyanın mənası və yaradılışın sirri barədə dərin fəlsəfi suallar verir. Bu cür mövzular hər zaman romantik sənətkarların diqqət mərkəzində olmuşdur.

Yuxarıda gətirdiyimiz nümunə romantiklərin dünya və yaradılış haqqında düşüncələrinin klassik nümunəsidir. Burada insanın metafizik suallar qarşısında duyduğu heyrət, həyatın mənasına dair cavabsızlıqlar və əbədi axtarış motivləri güclü şəkildə ifadə olunmuşdur. Məmməd Hadi, bu misralarında, romantik poeziyanın yüksək fəlsəfi qatına uyğun şəkildə insanın varlıq anlamını sual altına alır və cavabdan çox, sualın özünü dəyərli hesab edir.

Romantiklərin "gözəl gələcək" haqqında fikirləri isə, konkret tarixi şəraitə görə, hər nə qədər müsbət hadisə olub, fikirlərə yaxşı təsir bağışlasa da, mahiyyət etibarilə utopikcəsinə idi. Onlar gələcəyi "bahari-ələm", "ələmi-ziya", "şəfəq doğuran fəcr", "şanlı əyyam" kimi romantik tüllərlə bəzəsələr də, bu xüsusda anlayışları çox mücərrəd idi [ 1, s. 123].

Ümumiyyətlə, XX əsr Azərbaycan romantikləri cəmiyyətin dəyişdirilməsində əsas rolu sənətkarlara, onların yaratdığı əsərlərə verirdilər. Bir növ bütün inkişafın başlanğıcında yaradıcı şəxsiyyəti qoyur, onların fikir, düşüncə, mülahizələrinə hədsiz üstünlük verirdilər. Romantiklər cəmiyyətin inkişafında ədəbiyyatın rolunu düzgün qiymətləndirməyi bacarır, onun tərbiyəvi gücünü bu yolda əsas amil hesab edirdilər. Hüseyn Cavid yazırdı: "Bir ölkənin əhvali-ruhiyyəsində fənni-tərbiyənin, ədəbiyyat və fəlsəfənin təsiri inkar olunmayacaq məsələlərdəndir. Ədəbiyyat bir millətin əhvali-ruhiyyəsinin inikasıdır" [6]. Ümumbəşər şairin gəldiyi bu doğru qənat, demək olar ki, bütün romantiklərin gəldiyi ortaq nəticə idi. Buna görə də XX əsr romantikləri ədəbiyyatda daha çox ciddilik və bəşərilik tərəfdarı idilər. Onlar cəmiyyətə bir faydası olmayan laubali əsərlərin yazılmasındansa, insanlara həyatı dərk etmələrinə yardımçı olacaq daha ciddi əsərlərin yazılmasının tərəfdarı idilər.

1905-ci ildən etibarən ədəbiyyatda yeni şeir üslubu axtarışları özünü göstərməyə başlayır. Bunun nəticəsində o dövrdə təzə formalaşan romantik şeirin nəzəri və estetik əsaslarını yaymaq, Azərbaycan poeziyasına yeni istiqamət vermək məqsədilə Məhəmməd Hadi, Abbas Səhhət və digər tanınmış şairlər bu sahədə fəal şəkildə işləməyə başlayırlar.

Yaranmaqda olan şeirin necəliyi, hansı forma vəz məzmunda olması, nəzəri prinsipləri baxımından yeni fikirlər də ortaya çıxırdı. Realistlər belə hesab edirdilər ki, yeni şeir klassik şeirin ən yaxşı ənənələri, bünövrəsi üzərində qurulmalı, lakin keçmişi təkrar etməyən novator şeir olmalıdır. Yeni şeir yeni həyat, azadlıq uğrunda, müasirləşmək, mədəniləşmək uğrunda mübarizə silahına çevrilməli, öz mövzularını cəmiyyət həyatından, xalq həyatından almalı, cə-

miyyətin bütün yaralarını açıb göstərməli idi. Realistlər yeni şeirin necəliyi ilə bağlı olan suallara bu aspektdən yanaşmağı daha düzgün hesab edirdilər.

Yeni şeirin yaranması, formalaşması uğrunda mübarizədə fəaliyyət göstərən başqa bir mübarizə cəbhəsi də formalaşmışdı ki, bu cəbhədə də M.Hadi, A.Səhhət, H.Cavid, A.Şaiq kimi romantiklər dayanırdılar. Romantiklərin bu cəhətdən tutduğu mövqe çox vaxt realistlərin düşüncəsi ilə üst-üstə düşürdü. İlk növbədə onlarda realistlər kimi ənənəni qorumağı, lakin təkrarçılığa üz tutmamağı, ənənə ilə novatorluğun birlikdə müasir həyatla ayaqlaşa biləcək şeiri yaradacağını düşünürdülər. Eyni zamanda, sevgilidən, güldən, məhəbbətdən yazmaq əvəzinə xalqın arzu və istəklərini, düşüncələrini şeirə gətirməyin onu intibaha qovuşduracağına güclü inam bəsləyirdilər. Bizim romantiklər yalnız gözəl arzular, əməllər bəsləməklə kifayətlənmir, yeri gəldikcə, eybəcərliyi də realistlər qədər amansız tənqid, ifşa edir, hətta siyasi-iqtisad məsələlərinə qarışır, tüfeyli sinif və təbəqələrin sinfi psixolojisini də düzgün izah edə bilirdilər [1, s.93]. Burada bir məsələni də qeyd etmək yerinə düşər ki, romantiklər, ümumiyyətlə heç vaxt realistlərə qarşı olmamış, əksinə, çox vaxt onları dəstəkləyəcək fikirlərlə çıxış etmişlər. Yəni “romantizmlə realizm tamamilə bir-birinə zidd ədəbi cərəyanlardır”, “romantizm və realizm arasında heç bir oxşarlıq yoxdur” kimi fikirlər gerçəyi əks etdirməməklə yanaşı, bu ədəbi cərəyanlar və onların nümayəndələri arasındakı yaxınlıqları görməzdən gəlməkdən başqa bir şey deyildir. Çünki hər şeydən əvvəl, romantiklər hər zaman klassik irsə böyük hörmət və rəğbətlə yanaşırdılar. Romantiklər milli estetik düşüncədə ənənəni, varisliyi qoruyub saxlamağı vacib hesab edirdilər. Bunun üçün ədəbi tarixi prosesi öyrənməyi, ədəbi irsi toplamağı və ədəbiyyat tarixi yaratmağı zəruri tələb kimi irəli sürürdülər [10, s. 135].

A.Səhhət özünün “Təzə şeir necə olmalıdır?” adlı məqaləsində bu məsələlərdən geniş bəhs etmiş, köhnə şeirin, epiqonçuluğun əleyhinə çıxmışdır. Məqaləsində həmçinin böyük ədib köhnə üsulla yalnız qəzəl, qəsidə, mərsiyyə yazan şairləri kəskin tənqid edirdi. A.Səhhət belə şeirləri duzsuz, yaramaz söz yığını hesab edirdi. Eyni zamanda, o bu şeirləri yazan müəllifləri də pisləyir, onları elmsiz, savadsız, zəif şairlər olaraq təsvir edirdi.

Romantizm əslində ədəbiyyatın həyatda olduğu kimi deyil, xəyallarda canlandırıldığı kimi inkişafını irəli sürən ədəbi cərəyandır. Akademik Məmməd Cəfər Cəfərovun da dediyi kimi, “Romantiklər realistlərdən fərqli olaraq sənəti, ədəbiyyatı, bədii təfəkkürü birinci növbədə canlı, real həyatla deyil, ideyalar “işıqlı” fikirlərlə əlaqələndirirdilər. İdealla varlıq arasındakı təzadın bədii təsviri Azərbaycan romantizminin əsas yaradıcılıq prinsiplərindən biridir” [2, s. 189].

Romantizm cərəyanı sənətə və ədəbiyyata yeni ideyalar gətirərək insanın fərdi azadlığını, təbiətə bağlılığını, yüksək mənəvi ideallara sədaqətini əsas prinsip kimi irəli sürmüşdür. Romantik ədəbiyyatda maddi dünyanın yox, yüksək ideralların, mənəvi dəyərlərin üstünlüyü vurğulanır. Qəhrəmanlar tez-tez reallıqdan qaçaraq ideal dünyalara can atırlar. Eyni zamanda, romantiklər üçün xalqın tarixi, əfsanələri və milli qəhrəmanları böyük ilham mənbəyi idi. Onlar milli oyanışa xidmət edən əsərlər yaratmağa çalışırdılar.

Romantizmdə ümumi məhəbbət mövzusunun ön mövqeyə çəkdiyi insanlıq fəlsəfəsi motivləri inkişaf etdirilərək romantik ədəbiyyatda ümumiləşdirilmiş bəşəri fikirlərin ifadə edilməsi səviyyəsinə çatdırılmışdır. A.Şaiqin “Həpimiz bir günəşin zərrəsiyik” şeiri Azərbaycan romantiklərinin insanlıq sevgisinin, bəşəri humanizminin ən gözəl nümunəsidir:

*Həpimiz bir yuva pərvərdəsiyiz!*
*Həpimiz bir günəşin zərrəsiyiz!*
*Ayramaz bizləri təğyiri-lisan,*
*Ayramaz bizləri təbdili-məkan.*
*Ayramaz bizləri İncil, Quran... [11, s. 165]*

A.Şaiqin humanizm, millilik, bəşərilik ideyalarının manifesti hesab olunan bu şeirdə insanlar arasında dini, milli, irqi ayrıseçkilik rədd edilir, insanlar birliyə, həmrəyliyə dəvət

edilir. Əslində, bu bütün romantiklərin yaradıcılığında özünü göstərən məqamlardır. Yuxarıda da qeyd etdiyimiz kimi, romantiklər üçün insan və onun taleyi məsələsi hər zaman ön cəbhədə dayanmışdır. Buna görə də onlar öz yaradıcılıqlarında hər zaman bu problemi işləmiş və əsərlərinin əsas qayəsini də ümumbəşəri ideyalar təşkil etmişdir.

Dünya romantizm ədəbiyyatında olduğu kimi, XX əsrin əvvəlləri Azərbaycan romantik ədəbiyyatında da ümumi məhəbbət fəlsəfəsi romantiklərin estetik idealının ifadəsi kimi çıxış edir. Romantizmlə bağlı olan tədqiqatlarda qeyd edilir ki, klassik məhəbbət lirikasına xas olan qadın məhəbbətini ideallaşdırmaq, sevgi iztirablarını lirikanın əsas, aparıcı motivinə çevirmək hallarına burada çox az rast gəlmək olur. Romantik şeirdə məhəbbət lirikası çox zaman müəyyən fəlsəfi-siyasi görüşləri ifadə edən simvolik rəmzi vasitəyə çevrilirdi. Bu ilk növbədə mənsub olduğun xalqa bəslənilən məhəbbətin ümumən insanlığa olan məhəbbət səviyyəsində bədii cəhətdən ümumiləşdirilməsini təmin etmişdir. H.Cavidin "Qız məktəbi" şeirindəki "yoxmu başqa sevdiklərin?" sualının cavabında məktəbli qızın "anam, babam, müəllimim, bir də bütün insanlar" misrası romantizmdə məhəbbət fəlsəfəsinin mahiyyətini bütün genişliyi ilə əks etdirir. H.Cavid "Mənim Tanrım" şeirində də konkret olaraq hər hansı bir sevgilidən yox, geniş mənada bütövlükdə sevgidən və gözəllikdən bəhs olunması romantizmdəki ümumi məhəbbət fəlsəfəsinin mükəmməl bir əks-sədasıdır:

*Hər kəsin cahanda bir pənahı var,*
*Hər əhli-halın bir qibləgahı var.*
*Hər kəsin bir eşqi, bir Allahı var.*
*Mənim Tanrım gözəllikdir, sevgidir [7, s. 130].*

***İşin elmi nəticəsi:*** Romantizmin nümayəndələri reallığın adi təsvirindən qaçaraq, daha çox ideallaşdırılmış dünyalar yaratmağa çalışırdılar. Təbii gözəllik, qəhrəmanlıq, qeyri-adi hadisələr və utopik məkanlar romantik yaradıcılığın əsas mövzularına çevrilmişdi. Onlar təbiəti təkcə bir dekorasiya kimi deyil, insan ruhunun güzgüsü kimi təqdim edirdilər. Təbiətin dəyişkənliyi, fırtınalı və möhtəşəm təsvirləri romantik estetikada insanın daxili çırpıntılarına bənzədilirdi.

Romantizmin estetik xüsusiyyətləri arasında fərdi azadlığın, duyğusal intensivliyin və idealist dünya görüşünün vurğulanması da xüsusi yer tutur. Romantik sənətkar üçün insan ruhunun sərhədsizliyi və xəyalların gücü reallıqdan daha dəyərli görünürdü. Bu səbəbdən romantik əsərlərdə qəhrəmanlar tez-tez cəmiyyətlə, talelərlə və ya öz daxili ziddiyyətləri ilə mübarizə aparırlar. Romantizm həmçinin tarixi keçmişə və milli kimliyə olan marağı da gücləndirmiş, folklor, əfsanə və qədim ənənələrə əsaslanan mövzuların geniş işlənməsinə yol açmışdır.

Beləliklə, romantizmin estetikası duyğusallıq, təbiət sevgisi, fərdiyyətçilik, idealizm və milli ruhun bədii ifadəsi ilə səciyyələnir. Bu cərəyan sənətdə yeni bir duyğulu və azad ifadə tərzinin əsasını qoyaraq, sonrakı dövrlərin estetik düşüncəsinə güclü təsir göstərmişdir.

***İşin elmi yeniliyi:*** Məqalədə romantizm cərəyanının ideya istiqamətləri və estetik xüsusiyyətləri əsaslı şəkildə şərh olunmuş, Azərbaycan romantizmi ilə Avropa romantizminin oxşar və fərqli xüsusiyyətləri aydınlaşdırılmışdır. Eyni zamanda, ilk dəfə olaraq XX əsr Azərbaycan romantikləri iki cəbhədə mürtəce və mütərəqqi cəbhədə yox, ümumən "milli romantiklər" olaraq səciyyələndirilmişdir. Beləliklə də, romantizm Azərbaycan romantizminin əsas qayəsini təşkil edən millilik ön planda tutularaq tədqiqata cəlb olunmuşdur.

***İşin tətbiqi əhəmiyyəti:*** Məqalədə romantizm cərəyanının ideya-estetik xüsusiyyətləri ilə bağlı təqdim olunan fikirlər Azərbaycan ədəbiyyatının müasir inkişafı üçün zəmin yaradır, romantizm cərəyanı ilə bağlı olan nəzəri bilikləri genişləndirir. İrəli sürülən fərziyyələr, gəlinən nəticələr ədəbiyyatşünaslığın öyrədilməsi, eləcə də tədqiqi zamanı istifadə oluna bilər.

## Ədəbiyyat


1. Cəfər, M. Azərbaycan ədəbiyyatında romantizm / M.Cəfər, – Bakı: Azərnəşr, – 1963, – 217 s.
2. Cəfər, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Cəfər, – Bakı: Azərnəşr, – c.2, – 1974, – 340 s.
3. Əliyev, K. Azərbaycan romantizminin nəzəriyyəsi / K.Əliyev, – Bakı: Elm, – 2006, – 203 s.
4. Hadi, M. Seçilmiş əsərləri / M.Hadi, – Bakı: Şərq-Qərb, – 2005, – 234 s.
5. Həbibbəyli, İ. Romantik lirikanın imkanları / İ.Həbibbəyli, – Bakı: Yazıçı, – 1984, – 164 s.
6. Hüsey, C. Müharibə və ədəbiyyat // Açıq söz, – 1915, №19.
7. Hüseyn, C. Seçilmiş əsərləri: [5 cilddə] / C.Hüseyn, – Bakı: Lider, – c.1. – 2005, – 263 s.
8. Qarayev, Y. Poeziya və nəsr / Y.Qarayev, – Bakı: Yazıçı, – 1979, – 198 s.
9. Osmanlı, V. Azərbaycan romantizmi / V.Osmanlı, – Bakı: Elm, – 2010, – 462 s.
10. Salamoğlu, T. Tarixi və çağdaş ədəbi prosesə dair araşdırmalar / T.Salamoğlu, – Bakı: E.L, – 2009, – 213 s.
11. Şaiq, A. Seçilmiş əsərləri: [3 cilddə] / A.Şaiq, – Bakı: Avrasiya Press, – c.2. – 2005, – 435 s.
12. Şəmsizadə, N. Azərbaycan ədəbiyyatşünaslığı / N.Şəmsizadə, – Bakı: Ozan, – 1997, – 292 s.


**L.Z.Hasanova**

### The Main Ideological Directions and Aesthetic Characteristics of the Romanticism Literary Movement

***Summary***

The romanticism movement, one of the main trends in Azerbaijani literature of the 20th century, has taken its place in our literature as a literary trend that is distinguished in terms of its ideological directions and aesthetic characteristics and essentially requires a new form and content. The main feature that distinguished this trend from other trends was the universal ideas and important aesthetic characteristics it encompassed. The article, based on the work of Azerbaijani romantics, has been involved in the study of the specific main ideological directions of romanticism and its aesthetic characteristics have been investigated.

***Key words:*** *romanticism, literary trends, literature, aesthetics, artistic examples*

**Л.З.Гасанова**

### Основные идейные направления и эстетические характеристики романтического литературного течения

***Резюме***

Романтизм, одно из основных направлений азербайджанской литературы XX века, занял в нашей литературе свое место как самобытное по своим идейным установкам и эстетическим особенностям литературное направление, по сути требующее новой формы и содержания. Главным, что отличало это движение от других, были универсальные идеи и важные эстетические характеристики, которые оно включало. В статье рассматриваются основные идейные направления романтизма на основе творчества азербайджанских романтиков, рассматриваются их эстетические особенности.

***Ключевые слова***: *романтизм, литературные течения, литература, эстетика, художественные образцы*

*Rəyçi: filol.f.d., dos. R.Ə.Məmmədov*

*Redaksiyaya daxil olub: 01.05.2025*